

# Gündəlik 1,2 milyon barel nefti dünya bazarlarına çatdırmaq gücünə malik "enerji arteriyası"

**Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən zəngin Azəri-Çıraq-Günəşli yataqlarından hasil edilən nefti və Şahdəniz yatağının qiymətli kondensatını dünya bazarlarına daşıyan mühüm enerji dəhlizidir. Bu möhtəşəm layihə Azərbaycanın paytaxtı Bakı yaxınlığında yerləşən Səngəçal terminalından start götürərək, üç dost və tərəfdaş ölkənin - Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazilərindən keçərək Aralıq dənizindəki Ceyhan terminalına qədər uzanır.**

BTC bütövlükdə Xəzər regionunun strateji maraqlarına xidmət edir. Türkmənistan və Qazaxıstanın hasil etdiyi neftin qlobal bazarlara çıxarılmasında əvəzsiz rol oynayır. Xüsusilə, 2013-cü ildən etibarən Qazaxıstanın Tengiz yatağından çıxarılan xam neft də BTC vasitəsilə dünya bazarlarına daşınmağa başlayıb.

Bu nəhəng layihə Azərbaycanı beynəlxalq iqtisadi əməkdaşlıqda əsas liderlərdən birinə çevirib. BTC boru kəməri həm ölkəmizin enerji sektorunun inkişafına güclü təkan verir, həm də regionun neft-qaz resurslarını dünya ilə birləşdirən strateji körpü rolunu oynayır. Azərbaycanın enerji diplomatiyasının uğurlu nümunəsi olan BTC ölkəmizin uzunmüddətli maraqlarını təmin etməklə yanaşı, bölgədə iqtisadi sabitliyin və əməkdaşlığın möhkəmlənməsinə də töhfə verir.

Bakı-Tbilisi-Ceyhan boru kəmərinin ərsəyə gəlməsi regionun enerji sektorunda inqilab yaratdı. 1999-cu il noyabrın 18-də İstanbulda keçirilən ATƏT-in konfransında Azərbaycan Prezidenti, ulu öndər Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze və Türkiyə Prezidenti Süleyman Dəmirəl dünya miqyasında böyük əks-səda doğuran bir sənədə imza atdılar. "Xam Neftin Bakı-Tbilisi-Ceyhan Magistral İxrac Boru Kəməri vasitəsilə Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən nəql edilməsi" haqqında saziş tarixi mərhələ oldu. 2006-cı ilin iyununda tam gücü ilə istismara verilən BTC boru kəməri Azərbaycanın iqtisadi gücünü və strateji əhəmiyyətini bir daha dünyaya nümayiş etdirdi. Kəmərin tikintisini BTC Boru Kəməri Şirkəti (BTC Co) həyata keçirdi. Azərbaycan və Gürcüstan ərazilərində operatorluq bp-yə, Türkiyədə isə BOTAŞ International Limited (BIL) şirkətinə həvalə edildi. Bu nəhəng layihənin simvolik başlanğıcı 2005-ci il mayın 10-da boru kəmərinin neftlə doldurulması ilə başlandı. 2006-cı il mayın 28-də xam neft Ceyhan terminalına yetişdi. Bu tarixi uğur üçün tam 10 milyon barel neft lazım oldu. 2006-cı ilin iyun ayının 4-də isə BTC boru kəmərinin ilk nailiyyəti reallaşdı: kəmərlə daşınan neft ilk tankerlə dünya bazarlarına yola salındı. Bu tarixi an BTC-nin təkcə bir boru kəməri olmadığını, həm də Azərbaycanın dünya enerji bazarlarına açılan qapısı olduğunu göstərdi. BTC layihəsi Azərbaycanın müasir inkişaf salnaməsində qızıl hərflərlə yazılmış parlaq bir səhifədir.

Bakı-Tbilisi-Ceyhan boru kəməri qitələri birləşdirən, müasir mühəndislik möcüzələrindən biridir. Uzunluğu 1768 kilometr olan enerji magistralı Azərbaycanın Qaradağ rayonundan başlayaraq Gürcüstanın mərkəzindən keçir, Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan terminalında öz missiyasını tamamlayır. Kəmərin 443 kilometri Azərbaycanın, 249 kilometri Gürcüstanın, 1076 kilometri isə Türkiyə ərazisindən keçir.

Azərbaycan hissəsində kəmərin diametri 42 düym olan bu "enerji arteriyası" gündəlik 1,2 milyon barel nefti dünya bazarlarına çatdırmaq gücünə malikdir. BTC kəməri öz yolunda təbiətin müxtəlif maneələrini qət edir: 1500-dən artıq çayı, 13 seysmik qırılma xətti üzərindən uğurla keçirilib. Həmçinin kəmərin ən yüksək nöqtəsi - 2800 metr yüksəklikdəki dağlardan aşaraq, Ceyhan terminalında dəniz səviyyəsinə enməsi bu layihənin əzəmətini bir daha göstərir.

Kəmər Azərbaycanın 13 rayonundan - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafadan, Gürcüstanda 7, Türkiyədə isə 9 bölgədən keçir. Bu möhtəşəm layihə, həm təbiətə uyğun şəkildə inşa edilmiş, həm də bölgə iqtisadiyyatına güclü dəstək verən bir texnoloji əsərdir.

2022-ci ilin mart ayında Bakı-Tbilisi-Ceyhan boru kəməri tarixi bir uğuru qeyd etdi - Səngəçal terminalından başlayıb Azərbaycan, Gürcüstan və Türkiyədən keçməklə Ceyhan terminalında 5 mininci tankerə yüklənən neft dünya bazarlarına yola salındı.

2024-cü ilin birinci yarısı da BTC üçün rekord göstəricilərlə yadda qaldı. İstismarın ilk altı ayında əməliyyat xərclərinə təxminən 70,5 milyon ABŞ dolları, əsaslı xərclərə isə 17,7 milyon dollar sərf olundu. 2006-cı ilin iyunundan 2024-cü ilin iyunun sonunadək BTC vasitəsilə tam 576 milyon ton (4,3 milyard bareldən çox) xam neft dünya bazarlarına daşındı. Ceyhanda 5707 tanker bu nəhəng enerji axınını dünya bazarlarına daşıyaraq Azərbaycanın enerji ixracında əvəzsiz rol oynadı.

Bu ilin ilk altı ayında BTC ilə nəql edilən təqribən 14 milyon ton (110 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 150 tankerə yüklənərək yola salındı. Hazırda BTC Azərbaycanın Azəri-Çıraq-Günəşli (AÇG) nefti və Şahdəniz kondensatını daşımaqla yanaşı, Xəzərin digər enerji resurslarını - Qazaxıstan və Türkmənistanın xam nefti, həmçinin SOCAR-ın AÇG-dən kənar hasilat həcmlərini də uğurla dünya bazarlarına çatdırır.

**Musa BAĞIRLI,**
**"Respublika".**

Respublika .- 2024.- 17 noyabr (№ 253).- S.3.